**UOT069:7**

**Zenfira Seyidova**
**Naxçıvan Dövlət Universiteti**
**E-mail: turalmemmedov521@gmail.com**

# MUZEYLƏRDƏ İLLÜSTRASİYALARIN ƏHƏMİYYƏTİ

**Xülasə**: Dərin mənalı gözəl illüstrasiya-ədəbi əsərin yaraşığı və köməkçisidir. Romanı, poemanı, yaxud xalq əfsanəsini illüstrə edən rəssam və rəsmləri üçün obrazları, süjeti, ümumiyyətlə, mövzunu ədəbi mənbədən götürürsə də, əsərin ideya məzmununu, xarakterləri, hadisələrin inkişafını fərdi palitrasına məxsus səpgidə əks etdirir. Məqalədə Cəlil Məmmədquluzadə adına Naxçıvan MR Ədəbiyyat Muzeyində nümayiş etdirilən illüstrasiyalar haqqında məlumat verilir.

**Açar sözlər**: Muzey, eksponat, illüstrasiya, ekspozisiya, rəssam, bədii əsər.

Muzeylər xalqın qiymətli maddi və mənəvi mədəniyyət abidələridir. Çünki onlar xalq kütlələri arasında böyük elmi-kütləvi iş aparır, onları vətənə sədaqət, ədəbiyyat və mədəniyyətə məhəbbət, humanizm ruhunda tərbiyə edir.

Müdrik fikirlər, azadlıq duyğuları və humanist ideyaları aşılayan, Azərbaycan ədəbiyyatının çoxəsrlik tərəqqi yolunu öz ekspozisiyalarında işıqlandıran Cəlil Məmmədquluzadə adına Naxçıvan MR Ədəbiyyat Muzeyinin gördüyü işlər Azərbaycan ədəbiyyatının tədqiqi və təbliği nöqteyi-nəzərindən faydalı olmaqla bərabər, Azərbaycan mədəniyyətinin tərəqqisində də mühüm rol oynamışdır. Muzey üçün ədəbi mövzularda eksponatların yaradılması əsrlər boyu ədəbiyyatla təsviri və tətbiqi incəsənət arasında mövcud olmuş qarşılıqlı əlaqə və təsvirin daha da möhkəmlənməsinə təkan vermişdir.

Hazırda muzeyin ekspozisiyasında ədəbiyyat və incəsənət nümunələrinin qarşılıqlı əlaqəsi özünü əks etdirməkdədir. Tamaşaçı bu qarşılıqlı əlaqə- eksponatlar, miniatürlər, illüstrasiyalar, portretlər, bədii işləmələr, xalçalar, heykəllər, büstlər, dekorativ vazalar vasitəsilə əyani surətdə ədəbiyyat və incəsənət xadimlərinin həyatı və fəaliyyəti ilə tanış olur.

Gərgin axtarışların və yaradıcılıq təxəyyülünün nəticəsində yaranan kitab illüstrasiyası yazıçının təsvir etdiyi obrazları əyani vasitələrlə oxucunun nəzərinə çatdırır, əsərin ideya məzmunu dərk etməkdə ona kömək edir. Rəssamın təsviri yazıçı təsvirindəki mühitlə səsləşməli, onunla həmahəng olmalıdır. “İllüstrasiya” latınca “əyani təsvir” deməkdir. Ədəbi-bədii əsərlərin illüstrasiyaları rəssamın təxəyülü vasitəsilə yaranmış obrazlı, emosional təsvirlərdən ibarətdir. Bu cür illüstrasiyalarda mətndə təsvir olunan qəhrəmanların psixoloji aləmi, hiss və həyəcanları, düşüncələri fırçaya alınır. Rəssam heç də mətni kor-koranə şəklə

çevirmir. O, əsərin məzmunu dərindən dərk etmək yolu ilə daha dolğun surətlər yarada bilər.

Xalqımızın qədim tarixə malik zəngin və rəngarəng şifahi xalq ədəbiyyatı vardır. Kollektiv yaradıcılıq xüsusiyyətlərinə malik olan bu xalqı ədəbiyyatı nümunələri-əmək və mərasim nəğmələri, atalar sözləri, nağıl, əfsanə dastan və s. nəsildən- nəslə keçərək, məharətli söz ustalarının ifasında getdikcə cilalanmış və zəmanəmizə kimi gəlib çıxmışdır.

Ən qədim zamanlardan bu günədək çoxəsrlik Azərbaycan ədəbiyyatını əks edən Cəlil Məmmədquluzadə adına Naxçıvan MR Ədəbiyyat muzeyinin ekspozisiyasında yazılı ədəbiyyatla yanaşı şifahi xalq ədəbiyyatının göstərilməsinə geniş yer verilmişdir ki, bu da düzgün və təbiidir.

Çünki tarixən bir-birilə sıx əlaqədə olan yazılı ədəbiyyatla şifahi xalq ədəbiyyatı nümunələrini ayırmaq ümumən Azərbaycan ədəbiyyatı haqqında tam təsəvvür almağa maneçilik törədirdi.

Ekspozisiyada "Kitabi-Dədə Qorqud" dastanına da çox geniş yer verilmişdir. Tariximizin, ədəbiyyatımızın, dilimizin, folklorumuzun, etnoqrafiyamızın öyrənilməsi üçün çox zəngin mənbə olan "Dədə Qorqud" dastanı orta əsrlər həyatında baş vermiş tarixi, mədəni hadisələri əks etdirən çox böyük əhəmiyyətli bir əsərdir. "Kitabi-Dədə Qorqud" Azərbaycan ədəbiyyatının çox qədim nümunələrindən biridir. Dastanda X-XI əsrlərin həyatı, xalqın qəhrəmanlığı, adət və ənənələri öz əksini tapmışdır.

"Dədə Qorqud" dastanı on iki boy (hekayə) və bir müqəddimədən ibarətdir. Boyların əksəriyyətində epik qəhrəmanların daxili və xarici düşmənlərə qarşı mübarizə və müharibələrindən bəhs olunur. Ümumiyyətlə, "Dədə Qorqud" dastanında xalqın nəcib hissləri, vətənpərvərlik, fədakarlıq, sədaqət, qəhrəmanlıq, mətinlik kimi sifətləri təbliğ edilir. Əsərin əsas qəhrəmanları xalqını, vətənini sevən, mərd, namuslu, qorxmaz insanlardır. Gəncə, Bərdə, Şərur, Dərbənd bu qəhrəmanların yaşadığı, mübarizə apardığı, şücaət göstərdiyi əsas ərazidir.

Muzeyin ekspozisiyasında məşhur qəhrəmanlıq dastanı "Dədə Qorqudun" ilk növbədə ideya-məzmununun, ədəbiyyatımızın inkişafında mövqe və əhəmiyyətinin əyani vasitələrlə işıqlandırılmasına xüsusi fikir verilmişdir. Dastan ekspozisiyada əks etdirilərkən bədii tərtibat prinsiplərinə riayət olunmuş, mətn, kitab, təsviri incəsənət əsərlərindən, habelə yardımçı muzey vasitələrindən geniş istifadə edilmişdir. Burada verilən hər bir eksponat dastanın müəyyən bir cəhətini, ümumi mövzunun konkret bir məsələsini aydınlaşdırmaqla, əsas kompleksə tabe edilmiş, beləliklə də, "Dədə Qorqud" dastanı haqqında geniş elmi və təsviri məlumat verən vahid kompleks yaradılmışdır.

Divarda geniş planda verilmiş Azərbaycan xalq rəssamı M.Abdullayevin dastana çəkdiyi illüstrasiyalar nəzəri cəlb edir. Lakin həmin illüstrasiyalar başqa eksponatlarla elə əlaqələndirilmiş, üzvi surətdə birləşdirilmişdir ki, tamaşaçı əya-

ni surətdə həm əsərin məzmunu və ideyası, həm də onun tədqiqi, nəşri, başqa dillərdə tərcüməsi və s. mövzular haqqında da aydın təsəvvür alır.

Ekspozisiyada M.Abdullayev tərəfindən "Salur qazanın evinin yağmalandığı boyu bəyan edər" hekayəsinə çəkdiyi illüstrasiya nümayiş etdirilir. İllüstrasiyanın aşağı hissəsində hekayənin əsl ideyasını verən parça mövzunun şərhini tamamlayır. Eksponat-mətndə oxuyuruq: "Ərənlər əәni Qaraca Çoban sapanın arasına daş qoydu atdı. Birin atanda ikisin, üçün yıxdı, ikisini atanda üçün, dördün yıxdı. Kafirlərin gözünə qorxu düşdü. Qaraca Çoban kafirlərin üç yüzünü sapan daşı ilə yerə buraxdı. İki qardaşı oxa düşdü, şəhid oldu.

Çobanın daşı tükəndi, qoyun deməz, keçi deməz- sapanın arasına qoyar, atar, kafirlərin dördün, beşin bir yerdə yıxar. Kafirin gözü qorxdu. Dünya-aləm kafirin başına qarançı oldu, ayıtdılar.

-Yarımacın, yarımacın, bu Çoban bizi qırır olamı? dedilər"

Dastanda Qaraca Çoban Qazan xana qarşı qoyulur, ondan daha güclü, daha bacarıqlı, daha sədaqətli və daha namuslu göstərilir. Epos başdan -başa vətənə, anaya, oğula məhəbbət hissi ilə doludur. Burada yadelli düşmənlərdən qorunmağa, vətəni müdafiə etməyə çağırılır.

Bir neçə hissədən ibarət olan illüstrasiyada kompozisiyanın əsası geniş planda verilmiş əməkçi xalqın nümayəndəsi Qaraca Çobanın fövqəladə qəhrəmanlığı göz önündə canlanır.

Qaraca Çoban düşmənlə vuruşarkən daşın qurtardığını gördükdə sapanına qoyun, keçi, quzu qoyub atır. Bu epizod rəssam tərəfindən belə təsvir olunmuşdur. Qaraca Çoban bir qayanın üzərində daynaraq sapanı ilə düşmənin üzərinə qoyun-quzu atır. Çobanın hərəkətində ritmiklik və çəldlik vardır, onun misilsiz, qeyri-adi gücə malik olması hiss olunur. Başqa bir tərəfdə Qaraca Çoban tərəfindən atılmış iri bir daşın havadakı vəziyyəti əks olunmuşdur ki, bu da şərti simvolik bir şəkildə çobanın əvvəlcə daşdan istifadə etdiyini, indi isə artıq daşı qurtardığını göstərir. Qayadan aşağıda hücum etmiş düşmənlərin çobandan aldığı tələfat, qoşun içərisindəki təşviş aydın hiss olunur. Bu illüstrasiya öz quruluşu etibarilə horizontal şəkildədir. Belə səpgidə verilmiş kompozisiya dastanın əsas ideyasını açaraq, ətrafda verilmiş epizodlar vastəsilə baş vermiş mərkəz hadisəni hekayət edir. Başqa illüstrasiyalarda olduğu kimi bu kompozisiyada da rəssam xırda detallara geniş yer vermişdir ki, onların hər biri ayrı-ayrılıqda əhalinin məişət və həyat səhnələrini bütün incəliklərinə qədər canlandırır.

Tanış olduğumuz illüstarsiyaların dastanın məzmununun açılması, hər boy haqqında tamaşaçılarda təsəvvür yaratmasında nə qədər böyük əhəmiyyəti olduğunu gördük. Odur ki, bu illüstrasiyalar ekspozisiyada əsas eksponat kimi verilmişdir. İdeyanın, mövzunun açılmasında illüstrasiyanın nə qədər çox əhəmiyyəti vardısa, illüstrasiyanın mahiyyətinin tamaşaçılara çatdırılmasında izahedici mətn də bir o qədər faydalıdır. Məhz buna görədir ki, hər bir boya həsr edilmiş illüst-

rasiya ilə yanaşı həmin hekayədən seçilmiş hekayənin ideyasını verən və ya illüstrasiyanın mərkəzində verilmiş hadisəni, momenti əks edən mətn verilmişdir.

Sənət əsərləri, ədəbi əsərlər, tarixi hadisələr, ədəbi simanın tərcümeyi –halı haqqındakı faktlar əsasında yaranır. Odur ki, ədəbi mövzunun asan dərk edilməsi üçün təsviri materialların ekspozisiyasında göstərilməsi zəruridir. Ekspozisiyadakı ədəbi mövzulardakı eksponatlarla təsviri və tətbiqi sənət əsərləri bir-biri ilə vəhdət təşkil edirlər. Burada toplanmış Nizami Gəncəvinin "Xəmsə"si mövzuları əsasında yaradılmış miniatür və müasir illüstrasiyalar müəyyən bir epizodu aydınlaşdırır.

"Yeddi gözəl" poemasında Bəhram -Gurla qoca çobanın hekayəti də geniş miqyasda miniatürə çevrilmiş sujetlərdəndir. Nizami həmin hekayələrdə Bəhram şahın vəziri Rast Rövşən kimi ikiüzlü və satqın adamları ifşa edir, onların saraylarda apardıqları fitnəkar işləri açıb göstərir. Şərab və əyləncə Bəhrəmın gözlərini o qədər dumanlandırmışdır ki, vəzirinin əməllərini görə bilmir. Nəhayət, bir gün ov zamanı köpəyini ağacdan asmış bir çobana rast gəlir. Şah öyrənir ki, köpək sahibinə xəyanət etdiyi üçün cəzalandırılmışdır:

*Xəyanət işləmiş o, əmanətə,*
*Satır əminliyi min xəyalətə*
*Günahkarla belə rəftar etməsən,*
*Kimsə deməz sənə: "Affərin, əhsən"*
*Dedi ki, "Bu işə olmuşam heyran",*
*Şahlğı öyrətdi mənə bir çoban*
*Bu hekayə mənim hekayətimdir,*
*Mən çobanam, sürü rəiyyətimdir.*

Təsviri sənət əsərləri ilə şeir parçalarının qarşılıqlı verilməsi tamaşaçıların əsərləri asanlıqla qavramasına kömək edir.

Ekspozisyada böyük demokrat yazıçı Cəlil Məmmədquluzadənin əsərlərinə çəkilmiş illüstrasiyalar öz zənginliyi və müxtəlifliyi ilə diqqətəlayiqdir. Bu illüstrasiyalarda Mirzə Cəlil sənətinin ictimai, fəlsəfi, bədii mahiyyəti bütün aydınlığı ilə nümayiş etdirilir. Zalda görkəmli sənətkarımız rəssam O.Sadıqzadə, D.Kazımovun və b-nın Mirzə Cəlilin əsərlərinə çəkilmiş illüstrasiyaları nümayiş etdirilir. Rəssam Mirzə Cəlilin əsərlərindəki fikirləri elə sənətkarlıqla duymuşdur ki, nəticədə öz gözəl fırçası ilə yüksək səviyyəli sənət əsərini yarada bilmişdir. Rəssamın sənətkarlığı ondadır ki, Mirzə Cəlilin əsərləri əsasında çəkdiyi illüstrasiyada hekayələrin ümumi ruhunu rənglərin dili ilə tamaşaçıya çatdırmağa müvəffəq olmuşdur.

C.Məmmədquluzadə "Qurbanəli bəy" hekayəsini 1907-ci ildə yazmışdır. Qurbanəli bəy Qapazlı kəndinin mülkədarıdır. Ancaq hekayədə onun mülkədarlıq işi və qayğıları yox, xarakterinin səciyyəvi cəhətləri göstərilir. Qurbanəli bəy özündən böyüklər, vəzifəlilər qarşısında nökər, özündən kiçiklər yanında isə ağa-

dır, təkcə pristav və naçalniklərin deyil, onların arvadlarının da qabağında baş əyir, əsl "nəzakət" sahibi olur, özünə tabe adamlarla isə kobud rəftar edir.

Rəssam D.Kazımovun hekayəyə çəkdiyi illustrasiyada Qurbanəli bəyin yaltaq və lovğa təbiətini, onun mədəni yoxsulluğunu və nadanlığını pristavın arvadının ad günü münasibətilə keçirilən ziyafətdəki hərəkətləri vasitəsilə açır. O, pristavın xanımının sağlığına stəkanla araq içəndən sonra keflənərək naçalkinə deyir: "Naçalnik ağa, içirəm mən bu stəkanı sizin sağlığınıza. Allah da buna şahiddir ki, nə qədər bizim vilayətə naçalniklər gəlib-gedib, mən onların heç birini bu qədər istəməmişəm. Naçalnik ağa, sən bizim başımızın sahibisən. Nə qədər bizim mahalda camaat var, onlar hamısı sənin yolunda başlarından keçərlər. Mən özüm sənin yolunda oda girərəm. Qurban sənə mənim canım. Nə qədər ki, mən sağam, nökərəm sənə". Eyni sözləri eyni yaltaqlıqla o, Əfsərin və onun xanımının da ünvanına söyləyir.

Gərgin axtarışların və ilhamlı yaradıcılıq təxəyyülünün nəticəsində yaranan kitab illüstrasiyası rəssamın mətndəki əhvalatı, orda təsvir olunan mühiti təsəvvür etməsindən, duymasından çox asılıdır. Ədəbi əsərə illüstrə vermək rəssamdan birinci növbədə geniş bilik, incə zövq, zəngin fantaziya tələb edən mürəkkəb yaradıcılıq prosesidir. Rəssamın cizgi və boyalarla təsviri, yazıçının sözlə təsvirindəki mühitlə həmahəng səslənməlidir. Fırçaya alınan ədəbi hadisənin məhz mühitindən xəbər verən dərin mənalı illüstrasiya nəinki təkcə kitabın yaraşığıdır, o, həm də yazıçının qələmə aldığı obraz və hadisələrin şərhində əyani vasitə rolunu oynayır. Başqa sözlə, rəssam yazıçını kor-koranə təqlim edib, mətni rəsmə çevirmir. O, əsərin qaya və məzmununu dərindən dərk etmək yolu ilə daha dolğun surətlər yarada bilir.

Ekspozisyada XX əsrin əvvəllərində öz ictimai satirik şeirlərilə Azərbaycan ədəbiyyatında görkəmli yer tutan M.Ə.Sabirin əsərləri əsasında yaranan illüstrasiyalar şairin həyatı, şəxsiyyəti, yaşadığı mühit və yaradıcılıq yolu haqqında tamaşaçılarda geniş təsəvvür oyadır.

"Hophopnamə" yə çəkilən illüstrasiyalarda Nəcəfqulu inqilabdan qabaqkı Azərbaycan mühitini, təbii və inandırıcı obrazlar silsiləsini, real interyerləri və əlbəsələri maraqlı kompozisiyalarda verməyə nail olmuşdur.

Nəcəfqulunun "Avropada Məmmədəlinin eşqbazlığı" şeirinə çəkdiyi rəsmdə də özünəməxsusluq duyulur. Ağ yerlikdə Avropa şəhərlərinin birinin küçəsində insanların əhatəsində görüntüyə gətirilən Məmmədəli bu rəsmdə artıq dizi üstə düşüb əcnəbi xanıma yalvardığı durumdadır:

*Rəhm et mənə, can madmazel!*
*Könlüm olub qan, madmazel!*
*Bir baş Ədesdən gəlmişəm*
*Ardınca, canan madmazel!*
*Gör hali-biaramımı,*
*Dil bisükundur, gəl mənə!*
*Eşqin füzundur, gəl mənə!*

Əsərin məhz bu cür kompozisiya həlli iranlı hökmdarı gülüş doğuran vəziyyətdə, daha acınacaqlı vəziyyətdə göstərməyə imkan vermişdir.

Beləliklə, Azərbaycan təsviri sənətində bədii əsərlərin qəhrəmanları və ayrı-ayrı sujetləri əks etdirilən boyakarlıq, qrafika və heykəltaraşlıq əsərlərinin ən nəfis nümunələri təhlil edilib, onların estetik mahiyyəti, üslubu və sənətkarlıq xüsusiyyətləri ilə tanış olduqca ədəbi mövzular əsasında yaradılan sənət incilərinin xalqımızın mədəni həyatında geniş yayıldığı, onun məişətinə rövnəq verdiyi bütün genişliyi ilə anlaşılır. Bu, hər şeydən əvvəl, ədəbiyyatla təsviri sənətin sintezindən doğub billurlaşan müasir Azərbaycan incəsənətinin milli ənənələr üzərində zəruri inkişaf qanunauyğunluğu və misilsiz müvəffəqiyyətidir.

## Ədəbiyyat siyahısı:

1. Azərbaycan incəsənəti. Bakı,1992
2. N.Zamanov. Düşündürən naxışlar. Bakı,1981.
3. C.Məmmədquluzadə Ensiklopediyası. Bakı, 2008
4. N.Həbibov. Rəssamlıqdan söhbət. Bakı,1961
5. Muzeyşünaslıq. Dərslik. Bakı, 2002

**Зенфира Сеидова**

## Важность иллюстраций в музеях

**Резюме**: Иллюстрация с глубоким осмыслением служит укрощением художественного произведения. Художник, иллюстрирующий романы, поэмы, или народные сказания и легенды, несмотря на то, что при иллюстрировании образов сюжетов и тем обращается к литературным источникам, идейное содержание, характеры, развитие действия отражает исходя из присущей ему личной политры. В статье представлена информация об иллюстрациях, представленных в Литературном музее Нахчыванской АР имени Джелила Маммедкулизаде.

**Ключевые слова:** музей, экспонат, иллюстрация, экспозиция, художник, произведение искусства.

**Zenfira Seyidova**

## Importance of illustrations in museums

**Summary**: It is the beauty and vice of a beautiful illustration-literary work with deep meaning. For artists and painters depicting a novel, poem, or folk legend images, events and the subject are generally taken from a literary source, but the work reflects the content of the idea, the characters, and the development of the story and events in their own way. The article provides information about the illustrations exhibited in the Nakhchivan AR Literature Museum named after Celil Mammedguluzade.

**Key words**: Museum, exhibit, illustration, exposition, artist, work of art

**Məqalənin redaksiyaya daxil olma tarixi: 14. 10. 2021**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı: pedaqogika üzrə fəlsəfə doktoru, dosent Yeganə Eyvazova**